Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 341** **QƏRAR** **Bakı şəhəri, 26 oktyabr 2015-ci il**

# "ASAN ödəniş" sisteminə qoşulmaq üçün texniki tələblər"in və "ASAN ödəniş" sistemindən istifadə Qaydaları"nın təsdiq edilməsi barədə

"ASAN ödəniş" sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "ASAN ödəniş" sisteminə qoşulmaq üçün texniki tələblər" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "ASAN ödəniş" sistemindən istifadə Qaydaları" təsdiq edilsin (2 nömrəli əlavə).

3. "ASAN ödəniş" sisteminin iştirakçıları sistemə qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının bu qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş texniki tələblərə uyğunluğunu təmin etsinlər.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərara edilmiş əlavənin tam mətni ilə www.azerbaijan-news.az və cabmin.gov.az saytlarında tanış ola bilərsiniz.*